Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

N 136
(4359) CÜMƏ AXŞAMI, 22 İYUN 2006-cı il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan.news.az

Qiyməti 20 qəpik (1000 AZM)



# Şeyxülislam İKT-nin baş katibi ilə görüşmüşdür

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə iyunun 21-də öz iqamətgahında İslam Konfransı Təşkilatının baş katibi İkmaləddin İhsanoğlu ilə görüşmüşdür.

Şeyxülislam hörmətli qonağı Azərbaycanın yüksək mükafatı - “Şöhrət” ordeni ilə təltif edilməsi münasibətilə təbrik etdi, onun bu təşkilatla ölkəmiz arasında, habelə Türkiyə və Azərbaycan, ümumən türkdilli dövlətlər arasında əlaqələrin inkişafında böyük xidmətlərini vurğuladı.



Səmimi sözlərə görə təşəkkür edən İkmaləddin İhsanoğlu müstəqillik illərində Azərbaycanda dini dəyərlərin dirçəldilməsi və məscidlərin tikilməsi sahəsində görülən işləri müsbət qiymətləndirdi. Baş katib onu da vurğuladı ki, İKT Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həlli və işğal altındakı torpaqların azad edilməsi məsələsində Azərbaycanı bundan sonra da dəstəkləyəcəkdir.

Şeyxülislam və İKT-nin baş katibi bir-birinə xatirə hədiyyələri təqdim etdilər.

***AzərTAc***